**Bakı Xəbər**. - 2024. - 8 oktyabr. - № 181. - S. 8.

## Azərbaycanda sabitlik və inkişaf tolerantlıq şəraitində əldə olunur

**Tahir Tağıyev**

**Qədim dövrlərdən bəri Yer kürəsində müxtəlif mədəniyyətlərə, dillərə, adət-ənənələrə, həyat tərzinə, fərqli dinlərə etiqad edən xalqlar məskunlaşıb. Bu fonda ölkəmizin coğrafi baxımdan əlverişli məkanda yerləşməsi, bir çox dövlətlərlə mədəni əlaqələri dini-mədəni həyata böyük təsir göstərib, özünəməxsus həyat tərzimizi müəyyən edən amillərdən birinə çevrilib.**

Xalqımızın tarixində müxtəlif millətlərin və dinlərin nümayəndələrinin dinc yanaşı yaşaması və əməkdaşlığının, onların tolerantlığının, sülhsevərliyinin, həmrəyliyinin çoxlu nümunələri var. Ona görə də Azərbaycan ərazisində heç vaxt dini münaqişələr yaranmayıb.

**Ölkəmizin din sahəsində siyasəti dünya üçün nümunəvi xarakter daşıyır**

İslam, xristian və yəhudi dini icmaları arasındakı əlaqələrdə isti münasibətləri Azərbaycan tarixində daim görmək olar. Azərbaycan yer üzündə fəqrli din təmsilçilərinin birgə yaşamasının, onlar arasında harmoniyanın nadir nümunələrindən biridir. Azərbaycan müxtəlif xalqların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı çoxmillətli və çoxkonfessiyalı ölkədir.

Belə bir dövlətə nail olmaq Azərbaycanın humanizm və ümumbəşəri dəyərlərə əsaslanan milli siyasətinin təbii nəticəsidir. Bu siyasətin mahiyyətindən danışarkən qeyd etmək lazımdır ki, müstəqilliyin ilk günlərindən ölkə rəhbərliyi sosial, iqtisadi və siyasi problemlərin həlli ilə yanaşı, etnik-mədəni dəyərlərin və adət-ənənələrin bərpasına da böyük önəm verməyə başlayıb. Belə siyasətin hüquqi əsası Azərbaycan Konstitusiyasında və onun əsasında yaradılmış qanunvericilik bazasında təsbit edilib. Azərbaycanın bu sahədə milli siyasəti, xüsusilə, aşağıdakı prinsiplərə əsaslanır: Birincisi, cinsi, irqi, milli, dil, din, sosial mənşəyindən asılı olmayaraq, bərabər hüquq və azadlıqların, vətəndaşların qanun qarşısında bərabərliyinin təmin edilməsi. İkincisi, ictimai həyatın siyasi institutların, ideologiyaların və fikirlərin müxtəlifliyi əsasında inkişafının təmin edilməsi. Üçüncüsü, müxtəlif xalqların və millətlərin nümayəndələrinin dillərinə, adət-ənənələrinə hörmətin təmin edilməsi, onların inkişafı üçün lazımi şəraitin yaradılması. Azərbaycan ın milli siyasətinin əsas prinsipləri həyatda öz real təcəssümünü tapır. Qeyd edək ki, milli mədəniyyət mərkəzlərinin çoxşaxəli mənəvi-maarifçilik fəaliyyəti ümumi evimiz olan Azərbaycanda qarşılıqlı hörmət və millətlərarası tolerantlıq ruhunun bərqərar olmasına töhfə verən mühüm amildir. Bütün yuxarıda deyilənləri qısaca ümumiləşdirsək, qeyd edilə bilər ki, Azərbaycanda əldə edilmiş ictimai-siyasi sabitlik ölkədə millətlərarası sülhün və vətəndaş harmoniyasının təmin edilməsinə yönəlmiş düşünülmüş siyasətin nəticəsidir. Çünki dünya təcrübəsinin göstərdiyi kimi, iqtisadi, siyasi, mənəvi sahələrdə genişmiqyaslı islahatların uğurla həyata keçirilməsinin mühüm şərti ölkədə siyasi sabitlik, vətəndaş sülhü və millətlərarası harmoniyadır. Azərbaycanda xalqların sülh və əminamanlığı, dostluq və harmoniya, insana hörmət, milli mənsubiyyətindən və etiqadından asılı olmayaraq bütün insanlara yaradılan şərait, cəmiyyətimizdə bərabər mövqe həmişə qarşıya qoyulan məqsədlərə çatmaq üçün ən mühüm, həlledici şərt olub və təbii ki, belə də qalacaq. Ona görə də bir-biri ilə dərindən əlaqəli olan bu iki vəzifə - bir tərəfdən həyatın bütün sahələrində uğurlu islahatların aparılması və davamlı inkişaf, digər tərəfdən isə ictimai-siyasi sabitliyin qorunması respublikada həyata keçirilən siyasətin əsasını təşkil edir. Cəmiyyətdə sülhün və sabitliyin, inkişafın təmin olunmasında dini tolerantlıq da mühüm rol oynayır. Xalqımıza xas olan dini tolerantlıq ənənəsinin dərin tarixi kökləri var. Müstəqil Azərbaycanın din sahəsində siyasəti də bu ənənələrin möhkəmlənməsinə, məzmunca zənginləşməsinə xidmət edir. Dövlət dini qurumlarla münasibətlərində dünyəvi olmaqla aşağıdakı prinsiplərə əməl edir: Birincisi, dindarların dini hisslərinə hörmət, dini inancların vətəndaşların və ya onların hüquqi birliklərinin şəxsi işi kimi tanınması. İkincisi, həm dini etiqad edən, həm də onlara etiqad etməyən vətəndaşların bərabər hüquqlarının və təqiblərin yolverilməzliyinin təmin edilməsi. Üçüncüsü, mənəvi dirçəliş və ümumbəşəri əxlaqi dəyərlərin təsdiqi məsələsində onların imkanlarından istifadə etmək üçün müxtəlif dini birliklərlə dialoq axtarmağın zəruriliyi. Qeyd etmək lazımdır ki, bu prinsiplər öz praktiki icrasını tapır. Belə ki, bu gün ölkədə qüzlərlə dini qurum fəaliyyət göstərir.

**Dini tolerantlıq xalqımızın ən qiymətli dəyərlərindən biridir**

Əvvəlki dövrlərin ən yaxşı nailiyyətlərini özündə cəmləşdirən Azərbyacan mədəniyyəti, öz növbəsində, təkcə İslam mədəniyyətinin sonrakı inkişafına deyil, həm də Qərb intibahına, qlobal miqyasda tolerantlıq prinsiplərinin inkişafına ciddi təsir göstərib. Ona görə də xalqlarımızın mədəni nailiyyətləri təkcə müsəlman deyil, həm də dünya mədəniyyətinin tərkib hissəsi hesab olunur.

Yeni müstəqilliyinin ilk günlərindən nəhəng mənəvi irsə və tolerantlıq ənənələrinə malik olan Azərbyacan dinə münasibətini əsaslı və dəqiq müəyyən edib. Azərbyacan Konstitusiyası vicdan azadlığını, dini ayinləri maneəsiz yerinə yetirmək, hər hansı dinə etiqad etmək və ya ümumiyyətlə heç bir dinə mənsub olmamaq imkanını təmin edir. Dövlət müvafiq hüquqi sənədlər əsasında din xadimlərinin dini işlərinə qarışmadan vicdan azadlığına imkan yaradır. Ən yüksək keyfiyyətlərə malik şəxsiyyətlərin yetişdirilməsində dinin əhəmiyyəti və zəruriliyi qəbul olunur. Eyni zamanda dövlət dinlərin siyasiləşməsinin qarşısını almaq üçün tədbirlər görür. Dini liderlər harmoniya, sakitlik və qarşılıqlı hörmət yaratmağa ölkəmizdə kömək edirlər. Beləliklə Azərbyacanda xalqları arasında əsrlər boyu mövcud olan əməkdaşlıq, birlik, millətlərarası harmoniya və dini tolerantlıq müstəqillik illərində özünəməxsus məzmun kəsb edib. Bu, həm də çoxmillətli və çoxkonfessiyalı ölkəmizin ərazisində irqindən, millətindən, dinindən və ana dilindən asılı olmayaraq dövlətimizin hər bir vətəndaşına bərabər münasibəti təsdiqləyir. Dini tolerantlıq ənənəsi Azərbaycan xalqının ən qiymətli dəyərlərindən biridir. Bu gün də ölkəmizdə dini tolerantlıq ənənəsi bir tərəfdən qorunur və inkişaf etdirilir, digər tərəfdən isə bu ənənənin tarixi kökləri və nəzəri əsasları ətraflı öyrənilir. Azərbaycan qeyd olunan istiqamətdə təcrübəsini bununla daha zəngin hala gətirir.